AZƏRBAYCAN RESPUBLİKASI

BAKI ŞƏHƏRİ BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ

SƏRƏNCAMI

№ 98 "29" 04 2022-ci il

**Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının üzvlərinin və Katibliyinin tərkibinin təsdiq edilməsi haqqında**

"Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanında yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması tapşırılmışdır.Sözügedən Fərmanın icrası ilə əlaqədar Binəqədi Rayon İcra Hakimiyyəti başçısının "Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasının yaradılması haqqında" 5 fevral 2016-cı il tarixli 19 nömrəli Sərəncamı ilə Apellyasiya Şurası yaradılmış və Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Şuranın sədri təyin edilmişdir.

Binəqədi Rayon İcra Hakimiyyətində Apellyasiya Şurasının üzvlərinin və Katibliyin tərkibinin təsdiq edilməsi məqsədilə "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" nin 2.10-1, 2.10-2 və 6.8-ci bəndini rəhbər tutaraq

**Qərara alıram:**

**1.** Apellyasiya Şurasının tərkibi aşağıdakı kimi təsdiq edilsin :

**Apellyasiya Şurasının sədri :**

Leysan Məmmədov — RİH başçısının birinci müavini

**Apellyasiya Şurasının üzvləri :**

Yunis Hüseynov — Hüquq şöbəsinin müdiri

İskəndər Cahangir-zadə — Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri

Azər Kərimov — Rayon təsərrüfatı şöbəsinin müdiri

Hacıbaba Babayev — Sosial iqtisadi inkişafın təhlili və və proqnozlaşdırılması şöbəsinin müdiri

Nicat Allahverdiyev — İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri

Namil Məmmədov — Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsi

**Apellyasiya Şurasının Katibliyi :**

Katibliyin rəhbəri:

Sabir Əliyev — Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri

**Katibliyin üzvləri :**

Gülnarə Bayramova — Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin məsləhətçisi (vətəndaşların müraciətləri üzrə işin aparıcısı)

Vüsalə Eyvazova — Hüquq şöbəsinin məsləhətçisi.

**2.** Binəqədi Rayon İcra Hakimiyyətinin Apellyasiya Şurasına tapşırılsın;

- Şuranın fəaliyyətinin Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin tələblərinə uyğun şəkildə qurulmasını təmin etsin ;
- Şuranın iclasları,
- iclaslarda baxılan məsələlər və qəbul edilmiş qərarlar barədə məlumatların Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsində və kütləvi informasiya vasitələrində yayılmasını təmin etsin .

**3.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 12 fevral 2020-ci il tarixli, 17 nömrəli Sərəncamı qüvvədən düşmüş hesab edilsin.

**4.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Azərbaycan Respublikası Bakı şəhəri Binəqədi rayon İcra Hakimiyyəti
SƏNƏDLƏR ÜÇÜN